# SEQ prosedurunun idarə olunması və koordinasiyası – SEQ-nin əsas iştirakçıları

Matthew Cashmore və Martin Smutny
BMT-nin Avropa İqtisadi Komissiyasının məsləhətçiləri

Bakı, 4 – 5 aprel 2018-ci il

# SEQ-nin əsas iştirakçıları

- Planlaşdırma agentlikləri (sahələr üzrə nazirliklər, bələdiyyələr və s.)
- Ətraf mühitin mühafizəsi və səhiyyə orqanları
- Digər dövlət orqanları
- İctimaiyyət (vətəndaş cəmiyyəti, qeyri-hökumət təşkilatları və s.)
- Məsləhətçilər və ekspertlər
- Ekoloji təsirlərə məruz qalma ehtimalı olan digər ölkələr
- Qərar müəllifləri (planlar və ya proqramlar qəbul edən dövlət orqanları)

# Planlaşdırma agentliklərinin qarşısında duran tapşırıqlar

- SEQ-nin tətbiqini təmin etmək
- Ətraf mühitin mühafizəsi və səhiyyə orqanları ilə məsləhətləşmələr aparmaq
- İctimaiyyətin SEQ-də iştirakını təmin etmək məqsədilə vaxtında səmərəli imkanlar yaratmaq
- Plan və ya proqramda SEQ üzrə hesabatın və ictimaiyyət ilə aparılan məsləhətləşmələrin nəticələrini nəzərə almaq
- Plan və ya proqramın icra olunduğu müddət ərzində ətraf mühitə və sağlamlığa olan təsirlərin monitorinqini aparmaq
- Plan və ya proqramın ətraf mühitə və insan sağlamlığına vurduğu mənfi təsirləri aradan qaldırmaq məqsədilə tədbirlər görmək

OECD BETTER POLICIES FOR BETTER LIVES UNECE UN environment UNIDO

# Ətraf mühitin mühafizəsi və səhiyyə orqanlarının qarşısında duran tapşırıqlar

- İctimaiyyətin iştirakı və transsərhəd məsləhətləşmələr daxil olmaqla SEQ prosedurunu koordinasiya etmək
- SEQ prosedurlarının müəyyən mərhələlərində qərarlar qəbul etmək
- Ekspert şərhləri vermək
- SEQ üzrə keyfiyyətə nəzarəti həyata keçirmək

# Digər dövlət orqanları

- SEQ prosesində iştirak etməklə xüsusi töhfələr verə bilərlər

# İctimaiyyət

- **Bütün seçimlər mövcud olduğu zaman** ictimaiyyətin SEQ-də iştirakını təmin etmək məqsədilə erkən, zamanında və səmərəli imkanlar yaradılmalıdır.
- Aşağıda göstərilən məsələlərin təmin olunmasına ehtiyac var:
  - Plan və ya proqramın layihəsi, o cümlədən ekoloji hesabat vaxtında ictimaiyyətin diqqətinə çatdırılmalıdır;
  - Müəyyən zaman kəsiyində ictimaiyyətin plan və ya proqramın layihəsi, ekoloji hesabat barəsində fikir bildirməsi üçün imkan yaratmaq;
  - İctimaiyyəti məlumatlandırmaq və bu işdə maraqlı olan ictimaiyyət nümayəndələri ilə məsləhətləşmələr təşkil etmək məqsədilə geniş hazırlıq işləri görmək, hazırlıqlar barəsində ictimaiyyətə məlumat vermək.

# Məsləhətçilər və ekspertlər

- Qiymətləndirmənin miqyasını müəyyən etmək və ekoloji hesabatı (lazım olan bütün təhlillər daxil olmaqla) hazırlamaq
- SEQ-nin nəticələrini plan hazırlayan şəxslərə/planlaşdırma agentliyinə bildirmək
- Məsləhətləşmələr və ictimaiyyətini iştirakını asanlaşdırmaq
- Müvafiq hesabatlarda məsləhətləşmələrin nəticələrini nəzərə almaq

# Ekoloji təsirlərə məruz qalma ehtimalı olan digər ölkələr

- Mühüm əhəmiyyətə malik transsərhəd təsirlərin olması ehtimalı yaranarsa, belə ölkələr zaman plan və ya proqram qəbul edilməzdən əvvəl ən qısa zamanda aşağıda göstərilən məsələlər barəsində xəbərdar edilməlidir:
  – Plan və proqramın layihəsi, ekoloji hesabat, o cümlədən həm ətraf mühitə, həm də sağlamlığına olan mümkün transsərhəd təsirlər barəsində məlumat
  – Qərar qəbuletmə prosesi, o cümlədən şərhlərin verilməsi üçün nəzərdə tutulan münasib zaman kəsiyi barəsində məlumat

- Ekoloji təsirlərə məruz qalma ehtimalı olan ölkələr edilən xəbərdarlıq əsasında transsərhəd təsirlər və mənfi təsirlərin qarşısının alınması, azaldılması və ya yumşaldılması məqsədilə nəzərdə tutulan tədbirlər barəsində məsləhətləşmələrə qoşula bilər.

OECD BETTER POLICIES FOR BETTER LIVES | UNECE | UN environment | UNIDO

# Qərar müəllifləri i.

- Plan və ya proqram qəbul edilən zaman aşağıdakılar nəzərə alınmalıdır:
  - Ekoloji hesabatda göstərilən mənfi təsirlərin qarşısını almaq, azaltmaq və ya yumşaltmaq məqsədilə tədbirlər görmək;
  - Məsləhətləşmələr (transsərhəd məsləhətləşmələr daxil olmaqla) yolu ilə və ictimaiyyətin iştirakı ilə verilən şərhlər

# Qərar müəllifləri ii.

- Plan və ya proqramın qəbulundan sonra ictimaiyyət, ətraf mühitin mühafizəsi və səhiyyə orqanları, o cümlədən ekoloji təsirlərə məruz qalmış ölkələr:
  - Qəbul edilmiş sənəd və
  - Ətraf mühit və sağlamlıqla bağlı məsələlərin, məsləhətləşmələr yolu ilə verilən şərhlərin sənədə necə daxil edildiyini, münasib alternativlər olduğu halda bu sənədin qəbul edilməsinin arxasında dayanan səbəbləri qısaca olaraq özündə əks etdirən bəyanatla tanış olmalıdırlar.

Diqqətinizə görə təşəkkürlər!